**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BÖYÜK SƏLCUQ İMPERİYASI DÖVRÜNDƏ AZƏRBAYCANDA DÖVLƏT İDARƏÇİLİK SİSTEMİ

| | |
|---|---|
| İxtisas: | 5503.02 – “Vətən tarixi” |
| Elm sahəsi: | Tarix |
| İddiaçı: | **Nigar Pirhan qızı Həmidova** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix elmləri doktoru, professor
**Zabil Həsrət oğlu Bayramov**

Rəsmi opponentlər: tarix elmləri doktoru, professor
**Zeynalabdin Mədət oğlu Həsənəliyev**

tarix elmləri doktoru, dosent
**Xeyirbəy Sabir oğlu Qasımov**

tarix üzrə fəlsəfə doktoru
**Nurlan Paşa oğlu Nəsirov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED.2.20 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: __________ tarix elmləri doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

Dissertasiya şurasının elmi katibi: __________ tarix üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Telman qızı Nəcəfova**

Elmi seminarın sədri: __________ tarix elmləri doktoru, dosent
**Fazil Eynulla oğlu Baxşəliyev**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ
Ministry of Science and Education of the Republic of Azerbaijan
Baku State University
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"24" 12 2024

# I.DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Səlcuq bəyin başçılığı ilə Cənddə kiçik bir bəylik quran Səlcuqlu türkləri Mavəraünnəhr və Xorasanda Samanlı, Qaraxanlı və Qəznəli dövlətləri arasında gedən hakimiyyət uğrunda mübarizədə gah bu, gah da digər tərəfin yanında çıxış edərək dövrün beynəlxalq münasibətlərində önəmli rol oynamışdır. Dövrün siyasi hadisələrində yaxından iştirak edən Səlcuqlar Toğrul bəyin əsgəri gücü, Çağrı bəyin diplomatik bacarığı sayəsində dövlət yaratma yolunda irəliləmişdirlər. 1040-cı ildə Dəndənəkanda Qəznəli dövləti məğlub edilərək Səlcuqlu dövlətinin təməli qoyulmuş, Sultan Toğrul (1038-1063), Sultan Alp Arslan (1063-1072) və Sultan Məlikşahın (1072-1092) çoxsaylı yürüşləri nəticəsində dövlət böyük bir imperiyaya çevrilmişdir. Səlcuqlar hakimiyyətləri altında idarə etdikləri dövlətlərin iqtisadi, sosial, mədəni və siyasi həyatlarında dərin izlər buraxmışlar.

Qədim zamanlardan türk yurdu olan Azərbaycan Səlcuqlu türklərinin ictimai-siyasi, sosial və mədəni sahədə həyata keçirdiyi siyasətin əsas iştirakçısı olmuşdur. Azərbaycan Arslan Yabquya bağlı türkmənlərin və daha sonra Səlcuq sultanlarının buraya axınları nəticəsində Səlcuq türklərinin mərkəzlərindən birinə çevrilmişdi. Türk tarixçisi F.Sümər Azərbaycanda məskunlaşan Səlcuqlu türkləri haqqında yazır: "Azərbaycan və Arranda Səlcuqlu fəthindən etibarən çox sayda oğuz türkmənlər yaşayırdılar. Anadolunu fəth edən və oradakı türklüyü uzun müddət qidalandıran Azərbaycandakı oğuzlar olmuşdur".[1] Azərbaycanda məskunlaşan oğuzlar Səlcuqların Anadolunu fəth etməsində və səlib yürüşlərinin qarşısının alınmasında önəmli rol oynamışdır.

"Böyük Səlcuq imperiyası dövründə Azərbaycanda dövlət idarəçilik sistemi" adlı dissertasiya işinin araşdırılması əhatə etdiyi dövr və mövzu baxımından müasir tarixçiliyimizdə önəmli yer tutur. Dünya siyasətində sürətlə inkişaf edən siyasi, iqtisadi, sosial və mədəni münasibətlər sistemində türk dövlətləri arasında mövcud olan birlik və bərabərlik mövzunun öyrənilməsinin əhəmiyyətini artırır. Son

[1] Sümer, F. Oğuzlar (Türkmenler). Tarihleri-Boy teşkilatı-Destanları. İstanbul: Türk dünyası araştırmaları vakfı, 2016, s.150.

dövrlərdə türkdilli dövlətlər arasında siyasi, hərbi, sosial-iqtisadi və mədəni islahatlar həyata keçirilir. Azərbaycan türkləri türk dünyasında gedən ictimai-siyasi, sosial-iqtisadi, hərbi və mədəni inkişafda hər zaman önəmli rol oynamışdır.

Dövlət siyasətinin düzgün təşkil olunması dövlətin təməl ünsürlərindən biridir. Bu sistem birdən-birə qurulmur, illər, əsrlər ərzində müxtəlif təcrübələr nəticəsində formalaşır. Azərbaycan dövlət təşkilatı da bir çox ölkələrin, imperiyaların təcrübələri əsasında inkişaf etmişdir. Dövlət siyasətinin əsasını təşkil edən bir çox faktlara əsaslanaraq, Azərbaycan dövlət sisteminin türk dövlət təşkilatının tərkib hissəsi olduğunu deyə bilərik. Türk dövlətləri arasında əlaqələrin gücləndiyi bir zamanda türk siyasətinin təbliğinə böyük ehtiyac vardır. Eyni zamanda, türk tarixinin müxtəlif məsələlərinin tədqiq olunması da əhəmiyyətlidir. Türk dilli dövlətlərin dövlət təşkilatlarının ayrı-ayrı sahələrinin araşdırılması da belə əhəmiyyətli mövzulardandır.

Səlcuqlar zamanında Azərbaycanın həm siyasi tarixinin araşdırılması, həm də idarə sisteminin tədqiq olunması vacib və əhəmiyyətli məsələdir. Son zamanlara qədər Səlcuqların hakimiyyəti dövründə Azərbaycanın siyasi tarixinə dair çoxsaylı elmi əsərlər nəşr olunsa da, onların Azərbaycanda həyata keçirdiyi idarəçilik sistemi ayrıca tədqiqat işi kimi araşdırılmamışdır. Eyni zamanda Azərbaycan dövlətlərinin idarəçilik sistemi, ali hakimiyyət orqanları, inzibati idarə sistemi, şəhər idarəçiliyi, ordu quruculuğu və s. haqqında ayrıca elmi əsərlər də yazılmamışdır. Bəhs etdiyimiz problemlər haqqında ayrı-ayrı monaqrafiyaların bir fəsil və ya yarımbaşlığında məlumat verilmiş, elmi məqalələr dərc olunmuşdur. Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq kompleks şəkildə dissertasiyada çoxsaylı mənbə və tarixşünaslıq bazası əsasında Azərbaycan dövlətlərinin idarəçilik sistemi araşdırılmışdır. Bunu nəzərə alaraq, deyə bilərik ki, "Böyük Səlcuq imperiyası dövründə Azərbaycanda dövlət idarəçilik sistemi" mövzusu Azərbaycan tarixi üçün orijinal əhəmiyyət kəsb edir.

Qeyd edildiyi kimi "Böyük Səlcuq imperiyası dövründə Azərbaycanda dövlət idarəçilik sistemi" mövzusu Azərbaycan tarixşünaslığında xüsusi tədqiqat mövzusu olmasa da, həmin dövrdə mövcud olmuş Azərbaycan dövlətlərinin tarixi haqqında sanballı elmi əsərlər yazılmışdır. Mövzunun araşdırılmasında Səlcuqlu dövrünün

tədqiqatçısı Rauf Hüseynzadənin monoqrafiya və məqalələrinə ətraflı şəkildə müraciət edilmişdir. Müəllif "Qafqaz və Səlcuqlular"[2], "Səlcuqlular dövründə Qafqaz"[3] monoqrafiyalarında Səlcuqlu axınları zamanı Azərbaycan dövlətlərində ictimai-siyasi vəziyyət, vassallıq münasibətləri, ordu quruculuğu, atabəylik sistemi, uclar haqqında məlumat vermişdir. Mövzu baxımından müəllifin "Atabəy institutu" məqaləsi də xüsusi əhəmiyyət kəsb etmişdir.[4]

Mövzunun tədqiq olunmasında Azərbaycan tarixçisi Məhəmməd Şəriflinin əsərinə müraciət olunmuşdur.[5] Əsərdə Səlcuqlu axınları zamanı Rəvvadi, Şəddadi dövlətlərinin siyasi tarixi haqqında verilən məlumatlar mövzunun öyrənilməsində əhəmiyyət kəsb edir. Səlcuqlu axınları zamanında Azərbaycan dövlətlərindən biri olan Şirvanşahlar dövlətinin tarixi haqqında Sara Aşurbəylinin "Şirvanşahlar dövləti VI-XVI əsrlər" kitabından məlumat alırıq.[6] Azərbaycanın görkəmli tarixçisi Ziya Bünyadovun "Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər)" monoqrafiyası mövzu ilə bağlı çox dəyərli məlumatlarla zəngindir.[7] Tədqiqatçı Azərbaycan Atabəyləri dövlətini dövrün mənbə və tarixşünaslıq əsərləri vasitəsilə təhlil edərək dəyərli bir əsər ərsəyə gətirmişdir. Müəllif Atabəylər dövlətinin yaranması, çiçəklənməsi və süqutu, Atabəylər dövlətinin inzibati idarə sistemi, şəhərləri, vergiləri, torpaq mülkiyyət formaları, mədəni həyatı haqqında geniş məlumat vermişdir.

Səlcuqlu dövrünün tarixinə aid son 50 ildə bir çox elmi əsərlər dərc olunsa da, yenə də Səlcuqlu tarixi ilə bağlı bir çox problemlər öz həllini tapmamışdır. Buna səbəb isə, tədqiqat əsərlərinin sayının artmasına baxmayaraq, Səlcuqlu tarixi ilə bağlı dövrümüzə gəlib çatan

---

[2] Гусейн-заде, Р.А. Кавказ и Сельджуки, Баку: Кавказ, 2010, 272 с.

[3] Гусейн-заде, Р.А. Сельджукская эпоха истории Кавказа, Москва: Kremlin Multimedia, 2002, 183 с.

[4] Гусейнов, Р.А. Институт Атабеков // Палестинский сборник, выпуск 15 (78). Москва, Ленинград: Наука, 1966, с.182-196.

[5] Шарифли, М.Ф. Феодальные государства Азербайджана второй половины IX-XI веков, Баку: Кавказ, 2012, 405 с.

[6] Aşurbəyli, Sara. Şirvanşahlar dövləti (VI-XVI əsrlər), Bakı: Avrasiya press, 2006, 416 s.

[7] Bünyadov, Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225) / Z.Bünyadov. Bakı: Şərq-Qərb, 2007, 312

mənbələrin sayının dəyişməz olaraq qalmasıdır. Səlcuqlu dövrü ilə bağlı bir çox mənbələrin dövrümüzə qədər gəlib çatmaması da bir çox məsələlərin həllini çətinləşdirir. Digər bir problem, Azərbaycan tarixi ilə bağlı mənbələrdə olan məlumatların Səlcuqlu türklərinin və sultanlarının Arran və Azərbaycana, Anadoluya axınları ilə bağlı olmasıdır. Mənbələrdə Azərbaycan dövlətlərinin idarəçilik sistemi ilə bağlı məlumat qıtlığı da vardır. Bunu nəzərə alaraq qeyd edə bilərik ki, Azərbaycan dövlətlərinin idarəçilik sistemini tədqiq etmək çətin və məsuliyyətli işdir.

Mövzunun öyrənilməsində Azərbaycan tarixçisi Əkbər Nəcəfin monoqrafiyalarını qeyd etmək lazımdır. Müəllifin tədqiqatları Səlcuqlu tarixi ilə bağlı bir çox məsələlərin işıqlandırılmasında önəmli rol oynayır. Ə.Nəcəf Azərbaycanın Səlcuqlu imperiyası zamanında həm siyasi, həm də sosial-iqtisadi tarixi haqqında məlumat verən bir neçə monaqrafiyanın müəllifidir. Müəllifin “Səlcuqlu dövlətləri və Atabəyləri tarixi” monoqrafiyasında oğuz türklərinin tarix səhnəsin çıxmasından başlayaraq Səlcuqlu dövləti və Səlcuqlu Atabəylərinin tarixi araşdırılmışdır.[8] Ə.Nəcəfin “Azərbaycan Səlcuqları Yaqutilər (1043-1103)” əsəri tarixşünaslığımızda Yaqutilər haqqında yazılan ilk tədqiqat işidir.[9] Müəllif əsərdə Yaquti ailəsinin üç nümayəndəsinin hakimiyyətini və bu zaman cərəyan edən siyasi hadisələri ilkin mənbələr əsasında araşdırmışdır. Müəllifin “Aran Atabəyləri” monoqrafiyasında Aran Səlcuqlu məlikliyi (1093-1119) və Aran Atabəyləri (1119-1153) haqqında məlumat verilmişdir[10]. Əsərdə siyasi tarixi hadisələrlə yanaşı, sosial-iqtisadi vəziyyət, dövlət təşkilatı, hərbi idarə sistemini təhlil edilmişdir.

Dissertasiyada Elmira Mirzoyevanın son zamanlarda yazılmış tədqiqat əsərindən istifadə olunmuşdur.[11] Müəllifin monaqrafiyasında XI-XIII əsr Azərbaycan şəhərlərinin inzibati quruluşu araşdırılmışdır. E.Mirzoyeva ərəb və fars mənbələrinə, vətən və xarici tarixşünaslığa

---

[8] Nəcəf, Ə.N. Səlcuqlu dövlətləri və atabəyləri tarixi. (Oğuzların ortaya çıxmasından-XIV əsrə qədər). Bakı: Qanun, 2010, 756 s.

[9] Nəcəf, Ə.N. Azərbaycan Səlcuqları Yaqutilər (1043-1103). Bakı: Çapar, 2020, 282 s.

[10] Nəcəf, Ə.N. Aran Atabəyləri. Bakı: Başla Kitab, 2017, 430 s.

[11] Мирзоева, Э. Городское управление Азербайджана (XI-XIII века). Баку, 2002, 155 с.

əsaslanaraq Azərbaycan şəhərlərinin idarə olunmasında dini, mülki və hərbi vəzifələr, onların yeri və rolu haqqında məlumat vermişdir.

Türkiyə tarixşünaslığında Səlcuqların dövlət təşkilatı, mərkəzi və əyalət idarəetmə sistemi, hökumət təşkilatı, saray təşkilatı, ordu quruculuğu, dini siyasət və s. məsələlər tədqiq olunmuşdur. Səlcuqların dövlət təşkilatı Türkiyə tarixşünaslığında ilk dəfə İ.H.Uzunçarşılı tərəfindən araşdırılmışdır.[12] Uzunçarşılının əsərində Böyük Səlcuqlular, Anadolu Səlcuqluları, Anadolu bəylikləri, Elxanlılar və Məmlüklər zamanında divan təşkilatı, saray təşkilatı, ordu quruculuğu bir sözlə, dövlət idarəetməsinə dair təhlillərə yer verilmişdir. Mövzunun araşdırılmasında Mehmet Altay Köymənin tədqiqatlarını qeyd etmək istərdik. Səlcuqlar dövrünün siyasi tarixi ilə yanaşı, müəllif Səlcuqlu saray təşkilatı, mərkəzi təşkilat, əyalət təşkilatı, ordu quruculuğu, dini siyasət və s məsələlər barədə yazmış olduğu "Böyük Səlcuqlu tarixi" kitabının üçüncü cildində məlumat vermişdir.[13] M.A.Köymən eyni zamanda, vassal dövlətlər sistemi, Səlcuqlar dövründə bu sistemin mahiyyəti, vassal dövlətlərin daxil olduğu kateqoriyalar haqqında da məlumat vermişdir.[14]

Dissertasiyanın araşdırılmasında Türkiyə tarixçilərindən biri olan Ərdoğan Merçilin əsərləri önəm kəsb edir Ə.Merçil Səlcuqların dövlət təşkilatı ilə bağlı bir çox məsələləri araşdırmışdır. Müəllifin Səlcuqlar zamanında saray və saray təşkilatı ilə bağlı vəzifələr,[15] divan təşkilatı və bu təşkilatda xidmət edən vəzifə sahibləri,[16] hökmdarın ünvan və ləqəbləri, xütbə, çətir və digər hökmdarlıq atributları haqqında apardığı tədqiqatlar mövzu ilə birbaşa əlaqəli olduğundan onun əsərinə ətraflı müraciət edilmişdir.[17]

---

[12] Uzunçarşılı, İ. H. Osmanlı devleti teşkilâtına medhal. Ankara: Türk Tarih Kurumu, 1988, 520 s.

[13] Köymen, M.A. Büyük Selçuklu imperatorluğu tarihi. Alp Arslan və zamanı. c. 3., Ankara: Türk Tarih Kurumu, 2016, 532 s.

[14] Köymen, M.A. Selçuklu devri Türk tarihi. Ankara: Türk Tarih Kurumu, 2019, 322 s.

[15] Merçil, E. Selçuklularda saraylar ve saray teşkilatı. İstanbul: Bilge Kültür Sanat, 2011, 344 s.

[16] Merçil, E. Selçuklular zamanında dîvân teşkilâtı (Merkez ve Eyalet divanları). İstanbul: Bilge Kültür Sanat, 2015, 232 s.

[17] Merçil, E. Selçuklularda hükümdarlıq alametleri. Ankara: Türk Tarih Kurumu, 2007, 284 s.

Dissertasiyada Zəki Vəlidi Toğan,[18] M.H.Yınancın[19] əsərlərində Səlcuqlu hakimiyyəti zamanı Azərbaycanla bağlı olan faktlardan da istifadə olunmuşdur. Bu tədqiqat əsərlərində Azərbaycanda Səlcuqlular dövründə ictimai-siyasi vəziyyət, Azərbaycan dövlətlərinin Səlcuqlu siyasəti haqqında məlumat verilmişdir. Faruk Sümərin əsərində oğuzların tarixi ilə bərabər, Səlcuqluların siyasi tarixinə dair qiymətli məlumat vardır.[20] Faruk Sümər eyni zamanda Səlcuq türklərinin Azərbaycanda fəaliyyətlərini tədqiq etmişdir. Səlcuqlu dövrü türk tarixşünaslığında önəmli rol oynayan İbrahim Kafesoğlu mövzu ilə bağlı bir sıra monoqrafiyaların müəllifidir.[21] Türkiyə tarixşünaslığında Osman Turanın monoqrafiyalarında Səlcuqlu tarixinin bir çox qaranlıq məsələləri aydınlaşdırılmışdır.[22]

Dissertasiya işində S.Q.Ağacanovun əsərindən də istifadə olunmuşdur.[23] S.Q.Ağacanov Oğuz və Səlcuqlu tarixi mövzusunda tanınmış tarixçilərdəndir. Mövzunun araşdırılmasında rus tarixçilərindən V.Bartold[24] və V. Qordlevskinin[25] tədqiqat əsərlərinə də müraciət olunmuşdur. Hər iki tarixçi Səlcuqlu dövlətinin siyasi tarixi ilə birlikdə, dövrün sosial quruluşu, dövlət idarəetmə sistemi və iqtisadi siyasəti haqqında elmi araşdırma aparmışdır.

Dissertasiyanın tədqiq olunmasında Avropa tarixçilərindən Klaude

---

[18] Togan, Z.V. Oğuz destanı. İstanbul: Enderun Yayınları, 1982, 164 s.

[19] Yınanç, M.H. Türkiye tarihi. Selçuklular devri. İstanbul: Burhaneddin Matbaası, 1944, 191 s.

[20] Sümer, F. Oğuzlar (Türkmenler). Tarihleri-Boy teşkilatı-Destanları. İstanbul: Türk dünyası araştırmaları vakfı, 2016, 506 s.

[21] Kafesoğlu, İ. Selçuklular ve Selçuklu tarihi üzerine araşdırmalar. İstanbul: Ötüken neşriyat, 2019, 376 s.; Kafesoğlu, İ. Sultan Melikşah devrinde Büyük Selçuklu imperatorluğu. İstanbul: Ötüken, 2014, 238 s.; Kafesoğlu, İ. Türk Milli Kültürü, İstanbul: Ötüken Neşriyyat, 1998, 466 s.

[22] Turan, O. Selçuklular tarihi ve Türk-İslam medeniyyeti. İstanbul: Ötüken neşriyat, 2020, 542 s.; Turan, O. Türk Cihan hakimiyeti mefkuresi tarihi. Türk dünya nizamının milli, İslami ve insani esasları. İstanbul: Ötükün neşriyat, 2003, 560 s.

[23] Agacanov, S.G. Oğuzlar / Rus. çev., E.N.Necef, A.Annaberdiyev, İstanbul: Selenge yayınları, 2019, 454 s.; Агаджанов, С.Г. Очерки истории Огузов и туркмен средней Азии IX-XIII. Ашхабад, 1969, 303 с.

[24] Бартолд, В.В. Сочинения. Туркестан в эпоху монгольского нашествия. Москва: Восточной литературы, т. 1. 1963, 759 с.

[25] Гордлевский, В. Государство Сельджукидов Малой Азии. Москва: Издательство Академия Наук СССР, 1941, 199 с.

Cahen,[26] Karla Klausner,[27] A.K.S. Lambtonun[28] tədqiqatlarını qeyd etmək istərdik. Bəhs olunan müəlliflər Səlcuqluların siyasi, iqtisadi, mədəni tarixi və dövlət quruculuğu haqqında araşdırmalar aparmışlar. V.Minorskinin də tədqiqat əsərləri mövzunun tədqiq olunmasında önəmli yerə sahibdir.

Problemin araşdırılmasında dövrün mötəbər mənbələrindən geniş istifadə olunmuşdur. Dissertasiyada istifadə olunan mənbələrdən biri dövr haqqında geniş məlumat verən "Fotur zaman əs-sodur və sodur zaman əl-fotur ("Vəzirlər zamanının fitrəti və fitrət zamanının vəzirləri") əsəridir. Mənbənin müəllifi Şərəfəddin Əbu Nəsr Ənuşirəvan ibn Xalid Sultan Məlikşah zamanında gəncliyini yaşamış, Sultan Börküyarığın (1094-1105) katibi və Sultan Məhəmməd ibn Məlikşahın (1105-1118) vəziri olmuşdur. Farsca yazılan bu əsər Məlikşahın taxta çıxmasından (1072-ci il) İraq Səlcuqlu Sultanı Toğrul ibn Məhəmmədin ölümünə qədər olan hadisələri (1094-cü il) əhatə etmişdir. Mənbədə Səlcuqlu divan təşkilatı, vəzir, mustoufi, tuğrai, müşrif, arız əl-ceyş və ümumiyyətli dövlət quruluşu haqqında məlumatlar əks olunduğundan dissertasiyanın araşdırılmasında önəmli rol oynamışdır.

Mövzunun tədqiq olunmasında dövr haqqında ilkin qaynaq hesab olunan bir neçə "Səlcuqnamə"dən istifadə olunmuşdur. Onlardan Zahirəddin Nişapurinin "Səlcuqnamə" əsəri Səlcuqluların ilk fəaliyyətlərindən başlayaraq İraq Səlcuqlu sultanı III Toğrulun hakimiyyətinin əvvəlinə qədər hadisələri əks etdirir. 1177-1186-cı illər arasında qələmə alınan "Səlcuqnamə" dövrün siyasi, ictimai, sosial və mədəni tarixi haqqında geniş məlumata sahibdir.[29] Mövzunun araşdırılmasında Səlcuq və İraq Səlcuqlu dövləti, sultanlar, vəzirləri və hacibləri haqqında verilən məlumatlar xüsusi önəm kəsb edir.

---

[26] Cahen, C. Osmanlılardan önce Anadolu. Çeviren: Erol Üyepazarcı, İstanbul: Tarih Vakfı Yurt yayınları, 2008, 408 s.; Cahen, C. Türklerin Anadoluya ilk girişi (XI yüzyılın ikinci yarısı). Çeviri: Y.Yücel ve B.Yediyıldız // Belleten. Ankara: Türk Tarih Kurumu Basımevi, 1987, c. 51, sayı 201, s.1375-1431.

[27] Klausner, C. Selçuklularda vezirlik. Sivil idare üzerine bir araştırma (1055-1194). Çeviri: Mehmet Fatih Baş, Sinan Tarifçi, İstanbul: Kronik kitab, 2019, 174 s.

[28] Lambton, A.K.S. The İnternal structure of the Saljuq empire. Cambridge history of İran, vol. 5. Cambridge: Cambridge University Press, 1968, pp. 203-282.

[29] Zahîru'd-dîn Nîşâbûrî. Selçuknâme. Çeviren: A. Fidan, İstanbul: Kopernik Kitab, 2018, s.9.

Səlcuqlu dövrünün mötəbər mənbələrindən biri olan digər "Səlcuqnamə" "Əxbar əd-dövlət əs-Səlcuqiyyə" əsəridir. Səlcuqluların dövlət qurduqları tarixdən (1038) süqutlarına qədər tarixi hadisələri əhatə edən əsər Britaniya muzeyində mühafizə olunur. Bəhs etdiyimiz mənbənin dəyəri Səlcuqluların xristianlarla münasibətləri, gürcülərlə müharibələri, Alp Arslanın Bizansla müharibəsinə və s. dair qiymətli məlumatlarla zəngin olmasıdır. Azərbacan tarixində önəmli yer tutan əsərdə Azərbaycan Atabəyləri dövləti haqqında da dolğun məlumat verilmişdir.

Səlcuqlu dövrünə dair yazılan qiymətli mənbələrdən biri də Məhəmməd b. Əli b. Süleyman ər-Rəvəndi tərəfindən yazılmış "Rahət əs-südur və ayət əs-sürur" ("Könüllərin rahatı və sevinc əlaməti") əsəridir. Ravəndi əsərini 1203-cü ildə yazmağa başlamış və bir neçə ilə əsəri tamamən yazıb bitirmiş, əsəri Anadolu Səlcuqlu sultanı Qiyasəddin Keyxosrova ithaf etmişdir.[30]

Səlcuqlu vəziri Nizamülmülk tərəfindən farsca yazılmış "Siyasətnamə" ("Siyasət kitabı") və ya "Siyarül müluk" ("Hökmdarların həyatları") əsəri mövzumuz üçün birinci dərəcəli mənbə hesab olunur. Nizamülmülk əsəri 50 fəsil olaraq qələmə almışdır. Hər bir fəslin məzmununa uyğun ad vermiş və özünün də qeyd etdiyi kimi, hər fəsildə hədislər, Quran ayələri, zamanın böyüklərinin söylədikləri hekayələr əlavə etmişdir.[31] "Siyasətnamə"də dövlət quruluşu və idarəçilik sisteminə dair demək olar ki, bütün məsələlər öz əksini tapmışdır.

Qəznəli tarixinə dair Əbül Fəzl Beyhəqi tərəfindən yazılmış "Tarix-i Beyhəqi" dissertasiyanın araşdırılması üçün əhəmiyyətli mənbələrdən biridir. Əsərin müəllifi Beyhəqi Qəznəli dövlətində katib vəzifəsində çalışmışdır. "Tarix-i Beyhəqi" 30 cildi əhatə edən, Beyhəqinin özünün müşahidələrinə və qeydlərinə əsasən yazdığı əsər olmaqla, Qəznəli tarixinin başlanğıcından 1030-1041-ci illəri əhatə etmişdir.[32] Əsərin 5-10-cu cildləri dövrümüzə qədər gəlib çatmışdır.

---

[30] Muhammed b. Ali b. Süleyman er-Râvendi. Râhat-üs-sudûr ve Âyet-üs-sürûr (Gönüllerin Rahatı ve sevinç alameti). Çeviri: Ahmed Ateş, Ankara: Türk Tarih Kurumu, 2020, s.62.

[31] Nizâmü'lmülk. Siyâset-nâme. Tercüme: Köymen M.A, Ankara: Türk Tarih Kurumu: 2016, s.2.

[32] Hüseyin-i Beyhaki. Târîh-i Beyhakî. Tercüme: N.Lügal. Ankara: Türk Tarih Kurumu, 2019, s.XI.

Mənbə müəllifinin Qəznə divanında katib olaraq çalışması "Tarixi Beyhəqi"nin dövlət quruluşu məsələrinin tədqiqində önəmli rol oynamasına səbəb olmuşdur. Mənbədə dövlət quruluşu məsələləri, divanlar, ordu quruculuğu, şəhər idarəçiliyi, mülki və inzibati məmurlar haqqında geniş məlumat əks olunmuşdur. Onun əsərindəki bu məlumatlardan tədqiqat işində ətraflı şəkildə istifadə olunmuşdur.

Səlcuqlu tarixinə dair mənbələrdən biri olan "Təvarix-e Al-e Səlcuq" Yazıçızadə Əli tərəfindən 1424-cü ildə türkcə qələmə alınmış və Sultan II Murada təqdim edilmişdir.[33] Yazıçızadənin əsərə daxil etdiyi "Oğuznamə" bölümü və Səlcuqlu tarixinə aid hissələrlə birlikdə əsər dissertasiyamızın tədqiqində önəmli rol oynayır.

Səlcuqlular haqqında eyni zamanda, ümumi İslam tarixinə dair yazılmış əsərlərdə də məlumatlara rast gəlirik. Belə mənbələrdən biri Əbu Səid Əbdülhey Bin Zəhhak ibn Mahmud Gərdizinin 1050-1052-ci illərdə fars dilində yazmış olduğu "Zeynül-Əxbar" ("Tarixi-Gərdizi") əsəridir. Kifayət qədər irihəcmli olan bu əsər müxtəlif məzmunda fəsillərdən ibarət olmaqla İslama qədərki İran şahları, h.423/1032-ci ilə kimi Həzrəti Məhəmməd (s.ə.s) və xəlifələrin tarixi, o cümlədən 1041-ci ilə qədər Xorasan tarixindən bəhs edir.

Ümumi tarixi mənbə olan XIII əsr görkəmli ərəb tarixçisi İbn əl-Əsirin "Əl-kamil fi-t-tarix" ("Mükəmməl tarix") əsəri 12 cilddən ibarətdir.[34] "Əl-kamil fi-t-tarix" 1231-ci il hadisələri ilə bitir. Azərbaycan tarixi cəhətdən əsərin önəmi Səlcuqlular zamanında Azərbaycanda ictimai-siyasi vəziyyət, Atabəylər dövləti və dövlətin başçıları haqqında verdiyi məlumatlarda əks olunmuşdur. Digər bir İslam tarixinə dair əsər Elxanlı dövlətinin vəziri olmuş Fəzlullah Rəşidəddin tərəfindən yazılmış "Came üt-təvarix" ( "Tarixlər toplusu") əsəridir. Əsər iki cild olaraq yazılmış, ikinci cilddə Qəznəlilər tarixindən sonra "Zikr-i tarix-i Al-e Səlcuq" adlı hissədə Səlcuqlu tarixi əks olunmuşdur.[35] Əsərdə Səlcuq Sultanı Toğruldan başlayaraq İraq Səlcuq hökmdarı III Toğrulun

---

[33] Yazıcızade Ali. Tevârîh-i Âl-i Selçuk. Oğuznâme-Selçuklu tarihi. Hazırlayan: Abdulla Bakır, İstanbul: Çamlıca, 2017, 802 s.

[34] İbnü'l Esîr. El-Kâmil`de Selçuklular. Çeviri, notlar ve açıklamalar: Ö.Abdülkerim, İstanbul : Bilge Kültür Sanat, 2022, 545 s.; İzzəddin ibn Əl-Əsir. Əl-Kamil fi-t-tarix (Mükəmməl tarix) / Ərəbcədən tərc. Z. Bünyadov , Bakı: Şur nəşriyyatı, 1996, 192 s.

[35] Reşîdü'd-dîn Fazlullâh. Câmi'ü't-Tevârîh (Zikr-i Târîh-i Âl-i Selçûk). Çeviren: Erkan Göksu, H.Hüseyin Güneş, İstanbul: Bilge Kültür Sanat: 2014, s.37.

hakimiyyətinə qədər hər hökmdar üçün bir bölüm ayrılaraq yazılmışdır. Dissertasiyada istifadə edilən mənbələrdən biri Əbu Abdullah Məhəmməd əl-Əziminin (1090-1160) "Tarixi-Əzimi" əsəridir. Dünya və İslam tarixi haqqında müxtəsər əsər olan "Tarixi-Əzimi" Hz Adəmdan başlayaraq Abbasi xəlifəsi Müqtədinin (1075-1094) hakimiyyətinin sonuna qədər cərəyan edən tarixi hadisələr haqqında məlumat verir.[36] Dissertasiyada Azərbaycan tarixi haqqında, daha doğrusu Şəddadilərlə bağlı olan hissələrdən istifadə olunmuşdur.

Dissertasiyanın yazılmasında türk tarixi üçün dəyərli mənbə olan Qaşqarlı Mahmudun "Divani lüğət it-türk" əsərindən istifadə olunmuşdur. Səlcuqlu dövrü dövlət təşkilatının qədim türklərlə bağlılığını aydınlaşdırmaq üçün qədim türk abidəsi olan Orxon-Yeniseyin tərcümələrindən faydalanmışdır.[37] Dövlət təşkilatı ilə bağlı təkcə Səlcuqlu dövrü mənbələri deyil, İslam alimləri tərəfindən yazılan mənbələr də tədqiqata cəlb olunmuşdur. İbn Xəldun,[38]Mavərdi,[39] İbnüt Tıktakanın[40] əsərləri belə mənbələrdəndir.

**Tədqiqatın obyekti və predmeti.** "Böyük Səlcuq imperiyası dövründə Azərbaycanda idarəçilik sistemi" mövzusunun obyekti XI əsrin əvvəllərindən XIII əsrin 30-cu illərinə qədər Azərbaycan dövlətləri - Rəvvadilər, Şəddadilər, Şirvanşahlar və Azərbaycan Atabəylər dövlətinin idarəçilik sistemidir. Tədqiqatın predmeti isə Azərbaycan dövlətlərinin ali hakimiyyət orqanları, mülki idarəçilik sistemi, ordu quruculuğu, şəhər idarəçiliyi və məhkəmə sistemi, atabəylik müəssisəsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** "Böyük Səlcuq imperiyası dövründə Azərbaycanda dövlət idarəçilik sistemi" adlı tədqiqat işinin

---

[36] Azimî Tarihi. Selçuklarla ilgili bölümler (H.430-538=1038/39-1143/44). Metin, çeviri, notlar ve açıklamalar: A.Sevim, Ankara : Türk Tarih Kurumu Basımevi, 1988, 163 s.

[37] Rəcəbov, Ə. Orxon Yenisey abidələri. Bakı: Yazıçı, 1993, 389 s.; Orkun, H.N. Eski Türk Yazıtları, Ankara: Türk Dil Kurumu Yayınları, 1994, 192 s.

[38] İbn Haldun. Mukaddime. Evrensel tarihe ve toplum bilimlerine giriş. Çeviren: Cemal Aydın, İstanbul: Timaş yayınları, 2022, 968 s.

[39] Ebu'l Hasan Habib el-Maverdi. El-Ahkamü's-Sultaniyye. Islamda devlet ve Hilafet hukuku / Çev., prof. Dr. Ali Şafak, İstanbul: Bedir yayınevi, 1994, 504 s.

[40] İbnü't-Tıktaka El-Fahrî (Devlet İdaresi, Halifeler, Vezirleri Tarihi, 632-1258). Çeviren: R.Şeşen, İstanbul : Bilge Kültür Sanat, 2016, 237 s.

əsas məqsədi Azərbaycan dövlətləri olan Rəvvadi, Şəddadi və Şirvanşahların, eləcə də Azərbaycan Atabəylər sülaləsinin dövlət idarəçilik sistemini araşdırmaqdır. Səlcuqlu imperiyasının vassalları olan bu dövlətlərlə imperiyanın dövlət idarə sisteminin oxşar və fərqli cəhətlərini təyin etmək tədqiqatın əsas vəzifəsidir. Tədqiqatın əsas məqsəd və vəzifəsi Səlcuq imperiyası ilə digər müsəlman şərq dövlətlərinin və imperiyanın parçalanmasından yaranan sultanlıqlarla Səlcuqlu dövlətinin idarə sisteminin müqayisəli təhlil olunmasıdır. Dissertasiyanın yazılmasında qarşıya qoyulan məqsədlərə çatmaq üçün təyin olunmuş vəzifələr aşağıdakılardır:

- Səlcuqlu imperiyasının idarəçilik sistemi ilə bağlı mənbələri tədqiqata cəlb etmək və mənbələri müqayisəli şəkildə tədqiq etmək;
- Azərbaycan dövlətlərinin idarəçilik sistemi ilə bağlı yazılmış vətən, türk, rus və Avropa tarixşünaslıq əsərlərini təhlil etmək;
- Böyük Səlcuq imperiyasının idarəçilik sistemini qədim türk dövlətləri və müsəlman türk dövlətlərinin idarəçilik sistemi ilə müqayisəli təhlil etmək;
- Vassal dövlətlər sistemi anlayışının Səlcuqlu dövründə digər dövrlərdən fərqli və oxşar cəhətlərini aydınlaşdırmaq və Azərbaycan dövlətlərinin bu sistemdə rolunu təyin etmək;
- Atabəylik müəssisəsinin tarixini və mahiyyətini tədqiq etmək və bu müəssisənin Səlcuqlu imperatorluğuna təsirini ayınlaşdırmaq;
- Azərbaycan Atabəylər dövlətinin idarəçilik sistemini imperiya və digər atabəyliklərlə müqayisəli təhlil etmək.

**Tədqiqat metodları.** Dissertasiyanın yazılmasında tarixi tədqiqat metodları sistemli şəkildə tətbiq olunmuşdur. Tarixi genetik metod tətbiq edilərək əks olunan siyasi hadisələr və dövlət vəzifələri inkişaf mərhələləri ilə birlikdə tədqiq olunmuşdur. Dissertasiyada haqqında danışılan bütün vəzifələr haqqında Səlcuqlu dövrü ilə yanaşı, qədim türk dövlətlərində və XI-XIII əsrdə mövcud olan türk dövlətləri zamanında məlumat verilmişdir. Tarixi müqayisəli metod çərçivəsində tarixi hadisələr arasında oxşar və fərqli cəhətlər təhlil olunmuşdur. Dissertasiyada istifadə olunan digər tədqiqat metodu tarixi tipoloji metoddur. Bu metod vasitəsilə, hadisə və proseslər, eyni zamanda dövlət təşkilatı sistemi əsas əlamət və göstəricilərinə görə təsnif olunmuşdur. Tədqiqat zamanı tarixi xronoloji metoddan da istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

1. Səlcuq imperiyasının hakimiyyəti dövründə Azərbaycanda dövlət idarəçilik sisteminin milli tarix konsepsiyası çərçivəsində tədqiq olunması;
2. Böyük Səlcuq imperiyasının dövlət idarəçilik siyasətinin Azərbaycan dövlətlərinin idarəetmə siyasətinə təsiri;
3. Vassal dövlətlər sisteminin yaranması və bu sistemdə Azərbaycan dövlətlərinin (Rəvvadilər, Şəddadilər və Şirvanşahlar) yeri və rolunun təyin edilməsi;
4. Səlcuqlu axınları zamanı əsgəri təşkilatın əsas struktur bölmələrinin təyin edilməsi və orduda qulam əsgərlərin yeri və rolunun təyin edilməsi;
5. Dövlət idarə sistemində çalışan vəzifə sahiblərinin vəzifə və səlahiyyətlərini qədim türk dövlətlərində mövcud olan vəzifələrlə müqayisəli şəkildə təhlil etmək;
6. Azərbaycan Atabəyləri dövlətinin yaranmasına dair mövcud olan tarixi fikirləri mənbələr vasitəsilə təhlil etmək;
7. Atabəyliyin sultanlığa çevrilmə prosesini və atabəylik institutunun mahiyyətini aydınlaşdırmaq

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyini əsaslandıran əsas müddəalar aşağıdakılardır:

- Dissertasiya işi yazılarkən mövzu ilə bağlı ərəbdilli və farsdilli mənbələr, vətən, türk, ingilis və rus tarixçilərinin tədqiqat əsərləri ilk dəfə olaraq sistemli şəkildə tədqiqata cəlb olunmuşdur;
- Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, dissertasiya işində Azərbaycanda Səlcuqlu hakimiyyəti zamanı dövlət idarə sisteminə dair məsələlər ilkin qaynaqlar əsasında tədqiq olunmuşdur;
- Dissertasiyada XI-XIII əsrlərdə Azərbaycan dövlətlərinin idarəetmə sisteminin bütün sahələri ilk dəfə olaraq tədqiq olunmuşdur;
- Azərbaycan dövlətlərinin idarə sistemi və idarəçiliklə bağlı vəzifələr türkçülük konsepsiyası əsasında araşdırılmışdır;
- Bəhs olunan dövrdə dövlət idarəçiliyindəki vəzifələrin qədim türk dövlətlərinin idarə sistemində mövcud olan vəzifələrlə əlaqəsi ilkin qaynaqların tədqiqata cəlb olunması ilə tədqiq olunmuşdur;
- Son dövrlərə qədər Azərbaycan və Türkiyə tarixşünaslığında

Çağrı bəyin Anadolu səfəri haqqında verilən məlumatların Səlcuqlu dövrünün əsas qaynaqlarında mövcud olub-olmaması araşdırılmışdır;

- Azərbaycan Atabəyləri dövlətinin yaranma tarixi haqqında mənbələr, vətən və xarici tarixşünaslıq əsərləri müqayisəli təhlil olunmuşdur;

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya ilkin və əsas qaynaqların tədqiqata cəlb olunması ilə əldə edilmiş məlumatların müqayisəli təhlili əsasında yeni elmi yeniliklərin və tarixi həqiqətlərin üzə çıxarılmasında elmi-nəzəri və praktik əhəmiyyət kəsb edir. Bunu nəzərə alaraq, qeyd edə bilərik ki, dissertasiyanın elmi materialları və əldə olunan tarixi həqiqətlər ali məktəblərin tarix fakültələrinin mühazirə və seminarlarında, ixtisas kurslarında, dərslik və dərs vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** "Böyük Səlcuq imperiyası dövründə Azərbaycanda dövlət idarəçilik sistemi" adlı dissertasiya işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Azərbaycan tarixi ( təbiət fakültələri üzrə) kafedrasında yerinə yetirilmişdir. Dissertasiya işinin əsas müddəaları müəllifin dərc edilmiş məqalələrində, beynəlxalq və respublika elmi konfranslarında əks olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Bakı Dövlət Universiteti Tarix fakültəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısıdan ibarətdir. Üz qabığı və mündəricat 1030 işarə, giriş 27526 işarə, I fəsil 68536 işarə, II fəsil 103147 işarə, III fəsil 84277 işarə, nəticə 8019 işarədən, istifadə edilmiş ədəbiyyat 24027 işarədən, dissertasiyanın ümumi həcmi 166 səhifə olmaqla 291505 işarədən ibarətdir.

## II. DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsinə dissertasiya mövzusunun aktual olduğunu göstərən faktlar daxil olunmuş, həmçinin mənbə və ədəbiyyatlar təhlil edilmiş, dissertasiya işinin məqsəd və vəzifələri, xronoloji çərçivəsi, nəzəri-metodoloji əsası və praktik əhəmiyyəti

haqqında məlumat verilərək burada əsas elmi yeniliklərin qısa xülasəsi əks olunmuşdur.

Dissertasiyanın birinci fəsli **“Böyük Səlcuq imperiyasının yaranması, dövlət quruluşu və idarə sistemi”** adlanır və üç yarımfəsildən ibarətdir. Birinci fəslin ilk yarımfəsli **“Səlcuqlu dövlətinin yaranması”** adlanır.

Orta əsr mənbələrində Səlcuqların mənşəyi haqqında iki əsas istiqamət vardır. Bir qrup mənbələr Səlcuqların xəzər mənşəli, digər qrup mənbələr isə onların oğuz mənşəli olduqlarını müdafiə etmişdirlər.

Səlcuqluların Dəndənəkanda qazandıqları zəfər əvvəlkilərdən fərqli olaraq artıq onların yeni bir dövlət qurduqlarının sübutu idi. Cəndə gəldikləri illərdən bəri çətin mübarizələrdən sonra artıq Xorasanda müstəqil bir dövlət qurmağa müvəffəq olmuşdular. Bundan öncə Nişapurun işğalı zamanı Toğrul bəyin Şadyaxda Sultan Məsuda aid taxtda əyləşməsi dövlətin yaranması kimi qəbul edilsə də, bu zaman dövləti meydana gətirən ünsürlərin əksəriyyəti mövcud deyildi. Bu bir gerçəkdir ki, üzərində yaşadıqları torpaqların tam sahibi olmadıqca, Səlcuqluların müstəqil bir dövlət qurmuş olduqlarını söyləmək olmazdı. Bu cəhətdən Dəndənəkanda qazanılan zəfərlə Səlcuqlular Xorasanı fəth edərək dövlətin ən mühüm ünsürlərindən birinə sahib olmuşdular. Xorasan onların vətəni, Xorasanın məşhur şəhəri Nişapur onların paytaxtı olmuşdur.

Dissertasiyanın **“Azərbaycana ilk Səlcuqlu axınları” adlanan ikinci yarımfəsli Səlcuqlu dövləti yaranana qədər onların Azərbaycana axınları və bu axınlar zamanı baş verən hadisələr haqqındadır.**

Mənbələrdə və tarixi ədəbiyyatlarda Azərbaycan ilk Səlcuqlu axınının Çağrı bəyin Anadolu səfəri zamanı baş verməsi haqqında məlumat vardır. Biz mənbələr əsasında bu məsələni aydınlaşdırmağa çalışdıq. Belə bir yürüş var idimi və ya Çağrı bəy Anadolu səfəri zamanı Azərbaycan ərazisinə gəlmişdirmi?- bu suallara cavab tapmağa çalışdıq. Çağrı bəyin 1015-1018 və ya 1015-1021-ci illərdə Anadoluya səfər etməsi haqqında bir neçə mənbə məlumat vermişdir.[41] Mirxond yazır:

---

[41] Gregory Abû’l Farac (Bar Hebraues), Abû’l Farac tarihi. I cilt, Süryan. ing. çev. Ernest A. Wallis Budge, türk. çev., Ömer Rıza Doğrul. Ankara: Türk Tarih Kurumu Basımevi, 1945, s.293; Mîrhând, M.H. Ravzatu`s- Safâ fî Sîreti`l- Enbiyâ

"Əlitəkin böyük bir ordu hazırlayaraq hərbə hazırlaşan zaman Çağrı bəy qardaşına belə dedi: "İşin asan yolu sənin məiyyətinlə çöllərə çəkilməyində və mənim də Bizans torpaqlarına getməyimə icazə verməyindədir".[42] Bu haqda Əbul fərəc belə yazır: "Çağrı bəy türkmənlərdən böyük bir ordu hazırlayıb Ərməniyyə (Bizansın şərqində kiçik vilayət) və Xorasan şəhərini dağıtdı, sonra qardaşı Toğrul bəyə "burada iki böyük vali var: Xarəzmşah Harun və Səbuk Təkinin nəvəsi Mahmud oğlu Sultan Məsud. Biz ancaq bunların haqqından gələ bilmərik. Kəşf etdiyim Xorasan və Ərməniyyəyə gedə bilərik. Çünki orada bizə qarşı gələcək kimsə yoxdur".[43] Çağrı bəyin kəşfiyyat səfəri haqqında məlumat verən tədqiqatçılar bu yürüş nəticəsində Çağrı bəyin bu ərazilərdə güc və qüdrət sahibi olan, onların hakimiyyətinə mane olacaq hökumət və krallıqlar olmadığı qənaətinə gəldiyini qeyd edirlər. Bu məqsədlə, Çağrı bəy Mavəraünnəhrdə çətin vəziyyətdə olan qardaşı Toğrul bəyi Şərqi Anadolunun fəthinə təşviq etməsi əslində bu yürüşün əsl məqsədinin yurd axtarmaq və qənimət əldə etmək olduğunu isbat edir. F.Sümərdən başqa M.H.Yınanca istinad edən digər türkiyəli tarixçilər Çağrı bəyin 1016-1021-ci illərdə Anadoluya yürüşü haqqında məlumat verirlər.

Səlcuqlu dövləti yaranana qədər Azərbaycana, ümumiyyətlə Qafqaza hərbi yürüş edən Arslan Yabquya bağlı olan yabqulular adlanan oğuz birlikləri olmuşdur. Toğrul və Çağrı bəyin liderliyini qəbul etməyərək "zülm gördüklərini və Aşağı Türküstanda darlıq çəkdiklərini bildirərək" Qəznəli Mahmuddan Xorasana keçmək üçün icazə istəyən bu oğuz türkləri sultanın icazəsi ilə Nisa, Fəravə və Əbivərddə yerləşmişdilər.

**Birinci fəslin üçüncü yarımfəsli "Səlcuq imperiyasının ilkin dövlət təşkilatı" adlanır. Bu yarımfəsildə Səlcuqların ilkin dövlət təşkilatının təşkili, qurultay və ya kəngəş, divanlar haqqında ətraflı**

---

ve`l- Mülûk ve`l-Hulefâ (Tabaka-i Selçûkiyye). Tercüme ve notlar : Erkan Göksu, Ankara: Yenimahalle, 2015, s.25.

[42] Mîrhând, M.H. Ravzatu`s- Safâ fî Sîreti`l- Enbiyâ ve`l- Mülûk ve`l-Hulefâ (Tabaka-i Selçûkiyye) / Tercüme ve notlar : Erkan Göksu, Ankara: Yenimahalle, 2015, s.25.

[43] Gregory Abû'l Farac (Bar Hebraues), Abû'l Farac tarihi. I cilt, Süryan. ing. çev. Ernest A. Wallis Budge, türk. çev., Ömer Rıza Doğrul. Ankara: Türk Tarih Kurumu Basımevi, 1945, s.293.

**məlumat verilmişdir.**

Dövlət yaratmaq yolunda böyük inkişaf yolu keçən Səlcuqlular əvvəlki Türk Müsəlman dövlətlərinin təşkilat sistemindən də faydalanaraq mükəmməl bir dövlət təşkilatı yaratmışdırlar.

Qədim türk dövlətlərində "toy" şəklində zikr olunan daha sonra qurultay adını alan məclislər mühüm dövlət məsələlərinin həll edildiyi ali hakimiyyət orqanıdır. "Toy" bütün türk ləhcələrində məclis, toplantı mənasını ifadə etməkdədir və dövlətdə bir müəssisə olaraq sonrakı əsrlərdə ortaya çıxan "qurultay" sözünün qarşılığıdır. Orxon-Yenisey abidələrində və Çin mənbələrində əks olunan toy Göytürk və Uyğur xaqanlıqlarında siyasi, hərbi, iqtisadi və mədəni məsələlərin həll olunduğu dövlət məclisi idi.

Vəzirin rəhbərlik etdiyi Divan-i Alanın (Böyük Divanın) dörd əsas hissəsi var idi: 1) Divan al inşa vəl tuğra, bəzən divan-i rəsail və divan-i inşa da adlanır; 2) Divan al zaman vəl istifa (həmçinin divan-i istifa-yi məmalik də adlanır); 3) Divan-i işraf-i məmalik və 4) Divan-i ard.[44]

**Dissertasiyanın ikinci fəsli "Böyük Səlcuq imperiyası dövründə Azərbaycan dövlətlərinin idarəçilik sistemi" adlanır və üç yarımfəsildən ibarətdir. İkinci fəslin ilk yarımfəsli isə "Vassal dövlətlərlə münasibət və bu münasibətlərdə Azərbaycan dövlətlərinin yeri, rolu və idarəçilik sistemi"** adlanır.

Vassal dövlətlər və vassallıq sistemi qədim türk dövlətləri tarixindən bizə məlumdur. Vassallıq sistemi heç də hər yerdə, hər zaman eyni olan qəlibləşmiş qaydalara malik məfhum deyildir. Böyük Səlcuqlu imperatorluğu zamanında da vassal dövlətlərin vəzifə və səlahiyyətləri əski türk dövlətləri ilə müəyyən dərəcədə oxşar idi. Səlcuqlular zamanında illik xərac vermək, süzeren hökmdar adına xütbə oxutmaq, pul kəsdirmək, süzeren hökmdar yanında hökmdarlıq soyundan, əsasən də tabe hökmdarın oğullarından girovlar saxlamaq klassik vassallıq əlamətlərini təşkil edirdi.[45]

1067-ci ildə Səlcuq sultanı Alp Arslan öz ordusu ilə Azərbaycanda olduqda Aran və Naxçıvan əmiri II Fəzl və Şirvanşah I Fəribürz hədiyyələrlə onun hüzuruna təşrif buyurmuş, 1068-ci ildə Şirvanşah onu

---

[44] Peacock, A.C.S. Nomadic society and the Seljuq Campaigns in Caucasia. Iran and the Caucasus 9/II. 2005, s.257.

[45] Köymen, M.A. Selçuklu devri Türk tarihi. Ankara: Türk Tarih Kurumu, 2019, s.102.

Kiçik Asiyaya hərbi yürüşündə müşayiət etmişdir. Bütün bunlar Azərbaycan dövlətlərinin Səlcuq sultanından vassal asılılığının ifadəsi idi. Şirvanşah Fəribürz öz müstəqilliyini nümayiş etdirməyə cəhd göstərərək Dərbəndin Bab əl-Əbvab vilayətinə müdaxilə etdikdə böyük sultan onun üzərinə təzminat qoydu.[46] Beləliklə, Səlcuqlu sultanları Azərbaycan dövlətlərinin süzereni hesab olunsalar da, Azərbaycanda yerli sülalələr fəaliyyət göstərir, onlar daxili işlərində öz suverenliyinin-müstəqilliyinin və inzibati sisteminin, xəzinənin və qoşunun, sülalənin, sikkə zərbinin və sikkəxananın atributlarını qoruyurdular. Digər tərəfdən, Şirvanşahlar, Rəvvadilər və Şəddadilərin Səlcuq sultanına bac, xərac ödəməsi ardıcıl səciyyə daşımırdı və hərbi-siyasi vəziyyətdən asılı idi.

Səlcuqlu sultanlarının vassal asılılığını qəbul edən Azərbaycan hakimlərinin məlik ünvanı ilə dövləti idarə etdiyi məlumdur. Məlik sadəcə olaraq, ərazini sultanın iradəsi ilə idarə edirdi. Alp Arslanın oğlanlarına Gilan və Xarəzmə sahib olmaları haqqında fərmanda göstərilir ki, məlik bu ərazinin öz mülkiyyəti kimi idarə edirdi. Ona həmin bölgənin əhalisinin mənafeyini təyin etmək və vergilərin yığılmasında əvvəlki qaydalara riayət etmək tapşırılmışdı.[47]

II fəslin ikinci yarımfəsli **“Şəhər idarəçiliyi və məhkəmə sistemi”** adlanır**.**

Azərbaycanda Səlcuqlular zamanında şəhər idarəsində mövcud olan sosial zümrələr və vəzifələr haqqında dövrün mənbələrindən, zərb olunan sikkələrdən və epiqrafik abidələrdən məlumat alırıq. Səlcuqlular zamanında şəhər idarə sistemində rəis, amid, amil, şəhnə, eyni zamanda dini titul və rütbələr olan qazı, qazı ül-qüzzat, möhtəsib, nəqib, xətib də mövcud olmuşdur. Səlcuqluların hakimiyyəti zamanında Azərbaycanda şəhərlər əmirlər-hərbi rəislər tərəfindən idarə olunurdu. Rəis əyaləti idarə edən validən daha aşağı bir məmur olsa da, birbaşa sultana tabe və yalnız ona qarşı cavabdeh idi. Rəis başçılıq etdiyi şəhərdə maliyyə, daxili məsələlər və şəhərdə asayişin təmin olunmasından məsul idi.[48]

---

[46] Гусейн-заде, Р.А. Кавказ и Сельджуки. Баку: Кавказ, 2010, s.167.

[47] Lambton, A.K.S. Landlord and Peasant in Persia. London: Oxford University Press, 1953, s.60.

[48] Köymen, M.A. Selçuklu devri devlet teşkilatına dair yazılmış bir eser münasebetiyle // Selçuklu devri Türk tarihi araştırmaları, Ankara: 1963, I Belleten, XVII/68, s.341.

Azərbaycanda şəhər idarəçiliyində digər bir vəzifə sahibi şəhnə (şihnə) idi. Şəhnənin statusu haqqında fərqli mülahizələr mövcuddur. Orta çağ İslam aləmində şəhnə şəhərin və ya əyalətin əsgəri valisi, ordu başçısı və şəhərin idarəsinə cavabdeh olan məmur kimi müxtəlif vəzifələrdə çalışmışdır.[49] Şəhər idarəçiliyində mövcud olan məmurlardan biri də amildir. Amil maliyyə məmurudur və əsas vəzifəsi vergiləri toplamaqdır. Şəhər idarə sistemində ruhani sinfindən qazı, qazı ül-qüzzat, möhtəsib, xətib və digərləri önəmli rol oynayırdılar.

Qədim türklərin məhkəmə sistemi cəza və törə qanunları əsasında formalaşmışdı. Türklərin məhkəmə sistemində olduğu kimi, müsəlman dövlətlərində də siyasi və örfi məsələlər ayrı-ayrı məhkəmələr vasitəsilə həll olunurdu. Müsəlman şərqində İslamın yaranması ilə birlikdə məhkəmə sistemində şəri və örfi hüquq birlikdə fəaliyyət göstərirdi. Bunun nəticəsində, Səlcuqlular zamanında bütün Türk İslam dövlətlərində olduğu kimi məhkəmə sistemi şəri və örfi olmaqla iki yerə bölünürdü. Şəri məhkəmələrə din və şəriət işlərini bilən qazılar başçılıq edirdilər. Qazılar nigah və boşanma işləri, miras və alacaq-verəcək davalarına baxar, yetim və kişi qohumu olmayan qadınları himayə edər, məscidlərə aid müəssisələri və vəqfləri idarə edirdilər.[50]

Məhkəmə sisteminin digər hissəsi olan örfi məhkəmələr İslam dövlətlərinin ortaq müəssisəsi olan məzalim məclisləri vasitəsilə idarə olunurdu. Hökmdar ən yüksək dünyəvi hakim olduğundan divan-ı məzalimdə hökm vermə səlahiyyəti hökmdarda idi.

Dissertasiyanın II fəslinin üçüncü yarımbaşlığı **“Ordu quruculuğu və hərbi işin təşkili”** adlanır.

İlk dəfə Sultan Mahmud Qəznəli ayrı-ayrı xalqlardan toplanan xüsusi təlim almış əsgərlərdən ibarət xassə ordusu tərtib etdi.[51] İlk dövrlərdə Səlcuqlu fəthləri də türkmən qüvvələri ilə həyata keçirilmişdi. Toğrul bəy, Çağrı bəy, İbrahim Yınal və digər xanədan mənsubları türkmən döyüşçüsü idilər. Anadolu və Qafqaza edilən köçlər xassə ordusu ilə deyil, türkmənlərin orduları ilə aparılmışdır. Abbasilər,

---

[49] Kurpalidis, G.M. Büyük Selçuklu devletinin idari, sosyal ve ekonomik tarihi / Rus. Çev., İlyas Kamalov, İstanbul: Ötüken Neşiyyat, 2020, s.116.

[50] Sevim A. E. Merçil. Selçuklu devletleri tarihi. Siyaset, teşkilat ve kültür. Ankara: Türk Tarih Kurumu, 1995, s.515.

[51] Güngör, E. Tarihte türkler, İstanbul: Ötüken Neşriyyat, 1990, s.167.

Samanlılar, Qəznəlilər dövlətində qulam ordusu maaşlı əsgər olaraq xidmət edirdi. Səlcuqlulara qədər bu dövlətlərdən Qəznəlilər qulam əsgərlərdən ən yaxşı şəkildə faydalanmışlar.

Səlcuqlu ordusu təkcə maaşlı əsgərlərdən ibarət deyildi, kiçik və böyük torpaq sahələrinə-iqtalara sahib olan əsgərlər də var idi. İmperatorluğun ərazisi genişləndikcə, torpaq hissələr şəklində əmirlərə və əsgərlərə verilmişdi. İ.H.Uzunçarşılı bu ordunun ilk dəfə Nizamülmülk tərəfindən təşkil olunduğu qeyd edir.[52] İqtalı əsgərlər dövlətdən müəyyən olunmuş zamanlarda maaş almırdılar, sahib olduğu iqtadan əldə olunan gəlirlə öz ehtiyaclarını qarşılayırdılar. Səlcuqlu ordusunun xassə ordusundan başqa say etibarilə heç də bu əsgərlərdən az olmayan vassal dövlətlərin qüvvələri və öz vilayətlərindəki ərazilərdə oturan və çağrıldıqları zaman orduya qatılan əsgərləri də var idi.

Dissertasiya işinin III fəsli **“Azərbaycan Atabəyləri dövləti”** adlanır. Üç yarımfəslə bölünmüşdür. Bu fəslin birinci yarımfəsili **“Atabəylik institutu”** adlanır. Türkcə bir məfhum olan atabəylik zənnimizcə, Səlcuqlulara ya qədim türk dövlətlərindən və ya Oğuz Yabqu dövlətindən miras qalmışdır. Son illərdə rus araşdırmacılarından N.N.Kozmin Göytürklər tərəfindən yazılan, həmçinin tarixdə Göytürk yazıları kimi tanınan Orxon kitabələrində kitabələrin yaradıcısı olan Yolluq Tiginin öz-özünə verdiyi “Kül Tiginin atısı” ləqəbi üzərində dayanaraq, indiyə qədər bu kitabələrin tərcüməsi ilə məşğul olan Tomsen, Radloff və Melioranskiy kimi alimlərin şübhəli olaraq üzərində dayandıqları bu ləqəbin “atabəy” mənasına gəldiyini isbata çalışmışdır.[53] Səlcuqlulardan əvvəl atabəy ünvanına Oğuz Yabqu dövlətində də təsadüf olunmuşdur. Oğuz Yabqu dövləti başçısı Əli xan oğlu və vəliəhdi Qılınc Arslana Bəkdüz Kuzıci adlı birini vəzir və naib olaraq atabəy təyin etmişdir.[54] Beləliklə, mənbələrdən və tarixi ədəbiyyatlardan əldə etdiklərimiz nəticəsində deyə bilərik ki, atabəylik Səlcuqlulardan öncə müsəlman türk dövlətlərində mövcud olmasa da, daha qədim tarixə malik olmuş və Səlcuqlular zamanında siyasi mahiyyət qazanmışdır.

---

[52] Uzunçarşılı, İ. H. Osmanlı devleti teşkilâtına medhal. Ankara: Türk Tarih Kurumu, 1988, s.52.

[53] Atabeg // İslam Ansiklopedisi. İslam alemi. Tarih, coğrafya, etnografya ve biyografya lugati, İstanbul: Milli Eğitim Basımevi, 1967, s.712.

[54] Togan, Z.V. Oğuz destanı, İstanbul: Enderun Yayınları, 1982, s.71.

İlk dəfə Səlcuqlular zamanında atabəylik müəssisəsi dövlət quruluşunda önəm kəsb etmiş, atabəylər atabəyləri olduqları şahzadələr adına dövləti idarə edərək özlərinin ən yüksək inkişaf mərhələsini yaşamışlar. Səlcuqlular tarixində bu adı ilk dəfə Nizamülmülk almışdır.

III fəslin ikinci yarımfəsli **“İraq Səlcuqlu Sultanlığı sistemində Eldəniz Atabəyliyinin yeri və rolu” adı altında araşdırılmışdır.**

Sultan Məhəmmədin ölümündən sonra hakimiyyət uğrunda Məlikşah ilə Mosulda həbsdə olan Süleymanşah və Eldənizin himayəsində olan Arslan şah arasında mübarizə getmişdir. Sonda əmirlər aralarında məşvərət edərək Süleyman şahı Mosuldan gətirib 1160-cı ilin martında Həmədanda taxtda oturtdular. Sultan Məhəmməd vəfat edən zaman Müvafıq Girdbazu bütün əmirlərdən daha qüvvətli idi. Nəsirəddin Ağ Quş, İzzəddin satmaz və Atabəy Ayaz böyük əmirlərdən idilər. Səltənət işlərinin bir-birlərinə danışdılar. İnancı Rey şəhərindən çağırmağa və onun fikirlərinə müraciət etməyə qərar verdilər. Reydən gələn zaman Sultan Süleymanı seçdilər və onu çağırmaq üçün Reyə getdilər.[55] Atabəy Eldənizin könlünü almaq üçün onun yanında olan Məlik Arslanı vəliəhd təyin etdilər. Xütbə və sikkəyə onun da adını qoydular. Sultan Süleyman şah tədbirsiz, ağılsız və ifrat dərəcədə şərab içən idi. Əsgərlər onun əmirlərini yerinə yetirmir, əmirlər isə ondan şikayətçi idilər.[56] Bu arada Girdbazu Atabəy Eldənizə bir adam göndərib gəlməsi və Məlik Arslanı gətirməsi üçün onu təşviq etdi. Sultan şərab içməkdən elə bir hala gəldi ki, insanlardan qaçar və hüzuruna kimsəni qəbul etməz oldu. Beləliklə, əmirlər Arranın və Azərbaycanın əksər yerlərinin sahibi Şəmsəddin Eldənizin yanına adam göndərib onu dəvət etdilər ki, onun yanında qalan Arslan şahın adına xütbə oxutsunlar.

Dissertasiyanın üçüncü fəslinin III yarımbaşlığı **“Azərbaycan Atabəyləri dövlətinin idarə sistemi”** adlanır. Bu yarımbaşlıqda Azərbaycan Atabəyləri dövlətinin idarə sisteminin imperiyanın idaəetmə

---

[55] Zahîru’d-dîn Nîşâbûrî. Selçuknâme / çev. A. Fidan, İstanbul: Kopernik Kitab, 2018, s.144-145; Muhammed b. Ali b. Süleyman er-Râvendi. Râhat-üs-sudûr ve Âyet-üs-sürûr (Gönüllerin Rahatı ve sevinç alameti) / Çeviri: Ahmed Ateş, Ankara: Türk Tarih Kurumu, 2020, s.263; Sadruddîn Ebu’l-Hasan Ali ibn Nâsir ibn Ali El-Hüseynî. Ahbâr üd-Devlet is-Selçukiyye / Çev., Necati Lügal, Ankara: Türk Tarih Kurumu, 1943, s.101.

[56] Kayhan, H. Azerbaycan Atabeyliğinin kuruluşu ve Atabey İldeniz // Türkiyat Mecmuası, 2018, c.28, s.52.

sistemi ilə fərqli və oxşar cəhətləri təhlil olunmuşdur.

Atabəylər dövlətinin əsas hakimiyyət idarələrindən biri də hərbi idarə idi. Hərbi idarəyə başçılıq edən divan əl-arz və ya divan əl-ceyş ordunun əsas işləri ilə məşğul olurdu. Bu divanın başında dayanan şəxsə sahib divan əl-ard və ya arid deyilirdi. O, əsgəri şəxslərin hərbi iqtaları, gəlirləri və maaşlarına nəzarət edir, əsgər toplayır, bütün rütbədən olan hərbi qulluqçuların şikayətlərinə və haqlarının ödənməsinə baxır, əsgəri birliklərin təchizatını yoxlayırdı.[57]

Vəzir, orta əsrlər müsəlman türk dövlətlərində olduğu kimi Azərbaycan Atabəyləri dövlətində də hökmdardan, yəni atabəydən sonra ən önəmli vəzifə sahibi idi. O, bürokratik aparatın başçısı sayılırdı və dövlət başçısının vəkili, yəni məsləhətçisi idi. Azərbaycan Atabəyləri dövlətində inzibati idarə sitemində mühüm vəzifə sahiblərin biri də hacib idi. Bütün saray əhlinin başında dövlətin ilk mötəbər şəxslərindən biri olan baş hacib (hacib-i buzurg) və ya “haciblər hacibi” (hacib əl-hucjib) dayanırdı.[58]

Dissertasiya işinin **“Nəticə”** hissəsində tədqiqata yekun vurulmuş, tövsiyyələr qeyd olunmuş və müvafiq elmi ümumiləşdirmələr aparılmışdır:

1. Mənbəşünaslıq və tarixşünaslıq əsərlərinin təhlili Səlcuqluların heç də Avropa və Sovet tarixçilərinin qələmə aldıqları kimi, quldur və qarətçi  olmadıqları sübut olundu.  Səlcuqluların yaratmış olduğu dövlət idarə sistemini quldur və qarətçi tayfalar yarada bilməzdilər. Bu tarixi gerçəkliyi əks etdirmir.

2. Dissertasiyada Səlcuqların Azərbaycana ilk dəfə gəlişi Sultan Mahmudun onları Xorasandan sıxışdırmasından sonra, yəni təxmini 1028-1029-cu illərdə baş verməsi tədqiqata cəlb etdiyimiz mənbələrdən əldə olunan məlumatlarla sübut olunmuşdur. Azərbaycan və Türkiyə tarixşünaslığında 1015-ci ildə Çağrı bəyin Anadolu səfəri zamanı Azərbaycandan keçməsi dissertasiyada təhlil olunmuşdur. Dövrlə bağlı yazılan “Səlcuqnamələr”in heç birində bu yürüşlə bağlı məlumata rast

---

[57] Sevim A. E.Merçil. Selçuklu devletleri tarihi. Siyaset, teşkilat ve kültür. Ankara: Türk Tarih Kurumu, 1995, s. 509; Bünyadov, Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225).  Bakı: Şərq-Qərb, 2007, s.202.

[58] Бартолд, В.В. Сочинения. Туркестан в эпоху монгольского нашествия. Москва: Восточной литературы,  т. 1.  1963, s.286.

gəlmədik. Bunu nəzərə alaraq, belə bir yürüşün baş vermədiyini doğru hesab edirik. Monoqrafiya və ali məktəb dərsliklərində bu yürüşlə bağlı yazılan tarixi gerçəkliyi əks etdirməyən məlumatların gələcəkdə yenidən tədqiqata cəlb olunmasını tövsiyyə edirik.

3. Səlcuqlu hakimiyyəti zamanı vassal dövlətlər sisteminin formalaşması və inkişafı təhlil və tədqiq tələb edən mövzulardan biridir. Dövrün mənbələri və tarixi əsərləri vasitəsilə bu sistemin mərkəzi və əyalət təşkilatından fərqli və oxşar cəhətlərini təhlil etdik. Azərbaycan dövlətlərinin vassallıq şərtlərini necə yerinə yetirdiyi haqqında məlumat verdik. Dissertasiyada imperiya dövründə Səlcuqlu sultanlarının yürüşləri və Azərbaycan dövlətlərinin Səlcuqlu sultanları ilə münasibətləri əks olunmuşdur.

4. Dissertasiyada Səlcuqlu dövlət idarəetmə sistemi qədim türk və müsəlman dövlətlərinin idarəetmə sistemi ilə qarşılıqlı müqayisə əsasında təhlil olunmuşdur. Dissertasiyada Səlcuqlu imperiyasının idarəetmə sisteminin ərəb və fars təsiri nəticəsində formalaşması və onların tərkib hissəsi kimi təqdim olunması zəngin mənbəşünaslıq əsərləri vasitəsilə təkzib olunmuşdur. Səlcuqlu dövlətinin idarəetmə sistemində qədim türk ənənəsi özünü göstərmişdir. Belə ki, Səlcuqlu dövləti yarandıqdan sonra dövlətin ali hakimiyyətinin divanlar vasitəsilə idarə olunması qədim türklərdə mühüm məsələlərin həll olunduğu qurultay idi. Digər bir məsələ vəzirlə bağlıdır. Səlcuqlular dövründə vəzifənin vəzir adlanması o demək deyil ki, bu vəzifənin kökü farslarla bağlıdır. Sual olunur ki, qədim türklərdə ayğuçilər hansı vəzifələri yerinə yetirirdilər? Ayğuçilər vəzir adlanmasalar da, icra etdikləri vəzifələr vəzirin vəzifəsi ilə eyni idi. Tövsiyyə olunur ki, Səlcuqlu dövləti zamanı Azərbaycan dövlətlərinin dövlət təşkilatı gələcəkdə monoqrafiya və dərsliklərdə ümumtürk dövlət təşkilatının tərkib hissəsi kimi verilsin.

5. Səlcuqlu imperiyası və imperiyanın parçalanmasından yaranan atabəyliklərin idarə sistemi müqayisəli şəkildə təhlil olunmuşdur. Azərbaycan Atabəylər dövlətinin İraq Səlcuqlu Sultanlığında yeri və rolu, Azərbaycan Atabəylər dövlətinin yaranma tarixi və bu haqda olan fərqli fikirlər təhlil edilmişdir. Dissertasiyada Azərbaycan Atabəyləri dövlətinin yaranma tarixi 1136-cı il deyil, 1147-1148-ci il olduğu mənbələrin müqayisəli təhlili nəticəsində müəyyənləşdirilmişdir.

6. Atabəy Şəmsəddin Eldənizin qulamlıqdan dövlət yaratma yolunda göstərdiyi mübarizə zəngin mənbəşünaslıq və tarixşünaslıq materialları əsasında təhlil olunmuşdur. Azərbaycan Atabəyləri dövlətinin başçısı Şəmsəddin Eldəniz İraq Səlcuqlu Sultanlığı ilə qohumluğu və Arslanşahın atabəyi təyin olunmasından istifadə edərək dövlətin yüksək inkişafını təmin etmişdir.

7. Dissertasiyada Səlcuqlu imperiyasının idarəetmə sisteminin Atabəylərin idarə sisteminə təsiri dövrün mənbələrdə və tədqiqata cəlb etdiyimiz vətən və xarici tarixşünaslıqda geniş şəkildə tədqiq olunmuşdur.

8. Dissertasiyada sultanlıqdan yaranan atabəyliyin sultan ünvanına sahib olaraq Böyük Səlcuq imperiyasında ən ali mövqe qazanması əks olunmuşdur. Belə ki, Azərbaycan Atabəylər dövlətində Qızıl Arslanın Xəlifə tərəfindən Səlcuqlu sultanı ünvanına sahib olması çoxdandır davam edən həqiqi hakimiyyətin rəsmiləşməsi demək idi. Bununla da, Azərbaycan Atabəyləri Eldənizlilər "Böyük atabəy" adından sonra sultan ünvanını alaraq sultanlığı əldə etmişdir.

**Dissertasiya işinin əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində əksini tapmışdır:**


1. Böyük Səlcuqlu imperatorluğu və Azərbaycan (İbn-əl-Əsrin "Əl-Kamil Fi-T-Tarix" əsəri üzrə) // Tarix və onun problemləri, nəzəri, elmi, metodik jurnal. Bakı, 2017, №4, s. 344-351.
2. Böyük Səlcuq imperiyasınun Azərbaycan dövlətləri ilə siyasi münasibətləri // Azərbaycan Xalq Cümhuriyyəti – 100: Müsəlman şərqində ilk parlamentli respublika, beynəlxalq elmi konfransın xülasələri, 21-23 may 2018. Bakı, 2018, s. 65.
3. Böyük Səlcuq imperiyasınun Azərbaycan dövlətləri ilə siyasi münasibətləri // Müsəlman Şərqində ilk parlamentli respublika, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, 21-23 may 2018. Bakı, 2018, s. 817-821.
4. Eldəniz Atabəyliyinin idarəçilik sistemi // Bakı Universitetinin Xəbərləri jurnalı, humanitar elmlər seriyası. Bakı, 2019, № 2, s. 172-178.

5. Səlcuqların hakimiyyəti dövründə ordu quruculuğu // Tarix və onun problemləri, nəzəri, elmi, metodik jurnal. Bakı, 2019, №4, s. 11-16.
6. Böyük Səlcuqlu imperatorluğu və Azərbaycan Atabəylər dövlətində qulam sisteminin inkişafı // Bakı Universitetinin Xəbərləri jurnalı, humanitar elmlər seriyası. Bakı, 2020, №1, s. 129-139.
7. Atabəylik müəssisəsi və Atabəy Şəmsəddin Eldəniz // Tarix və onun problemləri, nəzəri, elmi, metodik jurnal. Bakı, 2021, № 1, s. 16-22.
8. Böyük Səlcuq imperiyasında saray təşkilatı // 1 millet, 6 devlet, ortak medya (türkçe konuşan ülkelerin medya platformu). Uluslararası sosyal ve beşeri bilimler kongresi. Bakı, 2021, s. 394-401.
9. Azərbaycan dövlətçilik tarixində Eldəniz Atabəyliyinin rolu // Dünya Azərbaycanlıları: Tarix və Müasirlik, IV beynəlxalq konfransın tezisləri, 29-30 dekabr 2021, Bakı, 2021, s. 88-93.
10. The vizier institution in the ruling of the Great Seljuk empire // Актульні питання гуманітарних наук. Ukrayna, 2022, № 54 (1), p. 34-40.
11. Azərbaycan dövlətçilik tarixində Eldəniz Atabəyliyinin rolu // Dünya azərbaycanlıları: tarix və müasirlik (Elmi-nəzəri toplu). Bakı, 2022-2023, №9, s. 95-108.
12. Böyük Səlcuq imperiyası dövründə Azərbaycanda şəhər idarəçiliyi // Общественные науки в современном мире: политология, социология, философия, история. Сборник статей по материаламLXXVI международной научно-практической конференции, «Интернаука». Москва, 2023, №11 (64), s. 33-44.
13. Selçuklu imparatorluğu döneminde Azerbaycanın şehir yönetiminde şahne // Ankara İnternational congres on scientific research – X, 25-27 june, Ankara, 2024, s. 477-481.

Dissertasiyanın müdafiəsi 12 fevral 2025-ci il tarixində saat $10^{00}$ Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1148, Bakı şəhəri, Z. Xəlilov küç., 23

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 28 dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.12.2024

Kağızın formatı: A5

Həcm: 46450 işarə

Tiraj: 100 nüsxə